UOT-811.512.162
Səhifə:18-23
https://doi.org/10.59849/2663-8967.2026.2.18

Nərgiz Hacıyeva
AMEA, Nəsimi adına Dilçilik İnstitutu,
filologiya elmləri doktoru, dosent
e-mail: nergiz.haciyeva.1961@mail.ru

BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA DAXİLİ NİTQ

XÜLASƏ

Azərbaycanın görkəmli xalq yazıçılarından biri olan Bəxtiyar Vahabzadənin yaradıcılığı dil və üslub cəhətdən çox zəngindir. Onun əsərləri dəfələrlə ayrı-ayrı tədqiqatçılar tərəfindən tədqiq edilmiş, onun dram əsərləri və şeirləri barədə bir çox məqalə və monoqrafiyalar yazılmışdır. B.Vahabzadənin əsərlərində digər yazıçılardan fərqli olaraq, məslək, əqidə, vicdan məsələsi həmişə ön plana çəkilir, daha qabarıq şəkildə üzə çıxır, yazıçının daxili aləmi, mənəvi dünyası yazdığı bir çox şeir misralarında öz əksini tapır. Dram əsərlərində təsvir edilən daxili monoloq fərdin özü ilə birtərəfli nitq əlaqəsinin mürəkkəb formasıdır. Daxili monoloq vasitəsilə fərd adətən öz şəxsi fikirlərinin son nəticələrini qeyd edir, buna görə onlar üçün müəyyən məzmunlu tamlıq və fasiləsizlik xarakterikdir ki, mövzunun vahidliyi ilə təmin olunur. Daxili monoloq habelə sakitləşdirmək, ürək-dirək vermək, fərdin öz davranışına qiymət vermək vasitəsidir. O, habelə digər insanlarla münasibətləri formalaşdırmağa, onun söz və hərəkətləri üzərində düşünməyə vadar edir. Daxili monoloqla yanaşı daxili nitqin daha bir forması – fərdin daxili dialoqu mövcuddur ki, qarşılıqlı əlaqədə olan dialoji cümlələrin ardıcıllığını qəhrəman tərəfindən deyilən və interpersonal ünsiyyətdə qəbul olunanları ifadə edir. Daxili monoloqdan fərqli daxili dialoq ekstravert kommunikativ aktdır, daha doğrusu, subyektlərarası ünsiyyətin nitqinin kənarda qurulmasına yönəlir (həm şəxslər arasında, həm də onun təfəkküründən kənarda olan müxtəlif şəxslərlə əlaqəsini göstərir).

Açar sözlər: *B.Vahabzadə, poema, daxili nitq, monoloq, daxili dialoq.*

Giriş: Azərbaycanın görkəmli xalq yazıçılarından biri olan Bəxtiyar Vahabzadənin yaradıcılığı dil və üslub cəhətdən çox zəngindir. Onun əsərləri dəfələrlə ayrı-ayrı tədqiqatçılar tərəfindən tədqiq edilmiş, onun əsərləri barədə bir çox məqalə və monoqrafiyalar yazılmışdır. B.Vahabzadənin əsərlərində digər yazıçılardan fərqli olaraq, məslək, əqidə, vicdan məsələsi həmişə ön plana çəkilir, daha qabarıq şəkildə üzə çıxır, yazıçının daxili aləmi, mənəvi dünyası yazdığı bir çox şeir misralarında öz əksini tapır.

B.Vahabzadənin əsərlərini tədqiq edən Aydın Məmmədov "Vicdanın səsi" məqaləsində yazır: "Mənəvi-əxlaqi təmizlik B.Vahabzadənin bədii yaradıcılığının mayasını təşkil edir. Şeirlərində olduğu kimi, "Vucdan", "Yağışdan sonra", "İkinci səs", "Yollara iz düşür" pyeslərində də B.Vahabzadə insan mənəviyyatında gedən psixoloji mübarizələri əməl və vicdan kontekstində həll etməyə çalışmışdır."[1].

Onun son "Kimdir haqlı" pyesinə simvolik olaraq seçdiyi ad "İkinci səs" də məhz bu daxili aləmin, mənəviyyatın səsidir. Dramaturqun "ikinci səs" adlandırdığı həmin səda da məhz vicdanın səsidir. Öz həyat yoldaşı Həyatı, 12 yaşlı qızı İradəni gözü yaşlı qoyub, sevdiyi qadına, Arzuya olan sevgisi ilə baş-başa qalan Rəşad öz daxili aləmi ilə söhbət edir, sonda onun "ikinci" səsi, vicdanı qalib gəlir, o, öz ailəsinə dönür. Pyesdə ürəkdə baş verən təbəddülatlar, ailə ilə sevgi, ağılla hiss arasında qalan Rəşadın öz-özü ilə, daxili aləmi ilə söhbəti, onun sevdiyi qadının, Arzunun həyata baxışı, Arzunun daxili aləmi, mənəviyyatı, ürək çırpıntıları, peşmançılıq və s. kimi hisslər əks olunur. Yazıçı dramda surətlərə verdiyi adları da təsadüfi seçməmiş, Arzu, Həyat, İradə adları ilə öz məqsədini, məramını irəli sürmüşdür. Y.Qarayev yazır: "Arzu müəllifin sevgi haqqında idealının, arzusunun ifadəsidir. Həyat real gerçəkliyi, həyatı əks etdirən surətdir. Müəllif

İradəni isə övladla bağlamışdır – ailə qarşısında ictimai məsuliyyət və borc hissi ilə. Rəşad məhz Arzu ilə Həyat, yəni idealla gerçəklik arasında çırpınır. Bu tərəddüd tamaşadakı obrazlardan hər birinin öz daxilindəki ikiliklə şərtləndirilir: ürək ideala, arzuya çağırırsa, vicdan, ağıl isə qanuna, əxlaq çərçivələrinə, ictimai normalara çağırır".[2]

Pyesdə birinci və ikinci Rəşad və Arzu ilə ikinci Arzu surətləri vasitəsi ilə müəllif onların daxili nitqini verməyə çalışmışdır. Pyesin qəhrəmanı Rəşad gecikmiş məhəbbəti naminə ailəsindən, ev-eşiyindən uzaq düşsə də, ikinci Rəşad, yəni onun ikinci" mən"i, vicdanı onun ailəsinin dağılmasına yol vermir. İkinci "mən" birinci "mən"ə anladır ki, sən yanlış yoldasan, həyat yoldaşının, qızının, günahsız, məsum Arzunun, Arzunu bütün varlığı ilə sevən Fikrətin taleyi ilə oyun oynayırsan. Birinci "mən" hirslənir və ondan soruşur ki, "sən kimsən?" İkinci "mən" cavab verir ki, mən sənin vicdanınam. İkiləşmə prosesində ikinci "mən", ikinci Rəşad, onun daxili aləmi qalib gəlir.

Bədii ədəbiyyatda daxili nitqin üç növü mövcuddur: daxili dialoq, daxili monoloq, sadə daxili replika. Onlar birlikdə şəxsiyyətin fasiləsiz daxili kommunikasiya prosesini ifadə edir ki, bu, daxili nitqlə həyata keçir [3, s.154].

Ədəbiyyatşünaslıqda monoloqu "daxili səs", "daxili mən" kimi qiymətləndirən Ə.Ələkbərli müxtəlif dram əsərlərində daxili səsin olduğunu qeyd edir və təhlil edir. O yazır: "60-80-cı illər dramaturgiyamızın təcrübəsində biz "səs" elementinin müxtəlif çalarlarını İ.Əfəndiyev, R.İbrahimbəyov, N.Xəzri və b.-nın əsərlərində müşahidə edirik..." [4].

Daxili monoloq fərdin özü ilə birtərəfli nitq əlaqəsinin mürəkkəb formasıdır. Daxili monoloq vasitəsilə fərd adətən öz şəxsi fikirlərinin son nəticələrini qeyd edir, buna görə onlar üçün müəyyən məzmunlu tamlıq və fasiləsizlik xarakterikdir ki, mövzunun vahidliyi ilə təmin olunur. Daxili monoloq habelə sakitləşdirmək, ürək-dirək vermək, fərdin öz davranışına qiymət vermək vasitəsidir. O, habelə digər insanlarla münasibətləri formalaşdırmağa, onun söz və hərəkətləri üzərində düşünməyə vadar edir. Daxili monoloqla yanaşı daxili nitqin daha bir forması – fərdin daxili dialoqu mövcuddur ki, qarşılıqlı əlaqədə olan dialoji cümlələrin ardıcıllığını qəhrəman tərəfindən deyilən və interpersonal ünsiyyətdə qəbul olunanları ifadə edir. Daxili monoloqdan fərqli daxili dialoq ekstravert kommunikativ aktdır, daha doğrusu, subyektlərarası ünsiyyətin nitqinin kənarda qurulmasına yönəlir (həm şəxslər arasında, həm də onun təfəkküründən kənarda olan müxtəlif şəxslərlə əlaqəsini göstərir).

Daxili dialoqun ekstravert kommunikativ akt kimi mövcudluğu daxili nitqin təbiətinə zidd deyil, belə ki, dialoqluq anlayışı dialoji nitqin dar mənasından daha genişdir.

Daxili dialoqun semantik strukturu ən azı iki tərəfin fəaliyyətinin nəticəsidir ki, burada fərdin təfəkküründə obyektivləşən nitq pozisiyaları iştirak edir. Beləliklə, daxili dialoq şəxsin öz fərdi təfəkküründə müxtəlif fikri pozisiyaların yaranması, onların öz aralarında qarşılıqlı əlaqəsidir. Onların qarşılıqlı əlaqəsi, hər şeydən əvvəl, onların qarşılıqlı asılılığında və uzlaşmasında özünü göstərir, daha doğrusu, şəxsiyyətin nitq pozisiyaları heç vaxt onun təfəkküründən ayrı mövcud ola bilməz, belə ki, onlar vahid nitq-fikir prosesində yaranır. Bu qarşılıqlı əlaqənin müxtəlif formaları daxili dialoqun müxtəlif tiplərini əhatə edir ki, onlar arasında açıq daxili dialoq və qapalı daxili dialoq ayırmaq olar.

Məsələn: "İkinci səs" pyesində Rəşadın öz özü ilə daxili dialoqu belə göstərir.

İkinci Rəşad. O səni də, sənin balanı da düşünür. Sən necə onu, onun gələcəyini düşünürsənmi?

Rəşad.Sən kimsən?

İkinci Rəşad. Özünü tanımırsan? Mən sənin ağlınam, vicdanınam, ikinci səsinəm. Sən məndən qorxma, biz bir adamıq, sən təkcə hisslərinlə qalsan, bədbəxt olarsan. Mən sənin yanında olanda sənə zaval yoxdur.

Rəşad. Demək, mən ikiyəm?

İkinci Rəşad. Bəli! İnanmırsan? İndi sən sevgilinin yanından hara gedəcəksən?

Rəşad. Evə.

İkinci Rəşad. Uşağın ad gününü keçirməyə. Sevgilinlə danışan dodaqların arvadınla danışacaq. Sevgilinlə görüşən əllərin arvadının, qızının sağlığına badə qaldıracaq. Bəs, bu ikilik deyil?

Rəşad. Bəsdir!

İkinci Rəşad. Yox! Hələ indi başlayırıq. Sən ikicə dəqiqə əvvəl sevgilinlə deyib-gülürdün. Özünü tamam unutmuşdun. Elə bilirdin ki, dünyada bir sənsən, bir də o. Nə arvadın var, nə də uşağın. Çölə çıxdın, sevgilinin hədiyyəsindən utandın. Bu xəcalət məni çağırdı...Mən gəldim. Mən sənin, sənə uzaqdan baxan gözlərinəm. İndiki halından qorxma, deyib-gülən, dünyanı, cəmiyyəti, ailəni unutduğun bayaqkı halından qorx! Sən indi həm hakimsən, həm müttəhim, həm xeyirsən, həm şər.

Rəşad. Demək mən öz-özümün düşməniyəm? Bunun nəyi yaxşı oldu ki...

İkinci Rəşad. Düşmən yaxşı şeydir. Adamı həmişə sərvaxt saxlayır. Amma vay o gündən ki, düşmən öz içində ola. Daxili düşmənə qarşı mübarizə aparmaq çox çətin işdir, amma vacibdir.

B.Vahabzadə Rəşad obrazının daxili səsi ilə yanaşı, onun sevdiyi qadının, Arzunun da öz daxili "mən"i ilə baş-başa qaldığını, ikinci səsin qalib gəldiyini böyük sənətkarlıqla qeyd edir.

İkinci Arzu. Gördünmü? (Arzu susur). O uşağın günahı nədir? (Arzu susur). Bundan sonra sən yenə vicdanını təmiz hesab edirsən?

Arzu. Mənim vicdanım ləkəsizdir.

İkinci Arzu. Demək asandır. Bütün günahkarlar öz günahlarına haqq qazandırmağı bacarır. Tutduğun əmələ yaxşı bax!

Arzu. Bəs mən neyləyim? Məgər mənim sevməyə haqqım yoxdur?

İkinci Arzu. Yox!...Bu cür sevgiyə heç kəsin haqqı yoxdur.

Arzu. Var, var! Axı mənim sevgim su qədər saf....

İkinci Arzu. Sən tərəzinin bir gözünə sevgini, o biri gözünə Həyatla İradənin göz yaşlarını qoy, gör hansı ağır gələr?

Arzu. Mənim göz yaşlarım qəlbimə axır, heç kəs onu görmür.

İkinci Arzu. Bir anlığa özünü qoy Həyatın yerinə. Ərin başqasını sevsə dözə bilərsənmi?

Arzu. Yox! Qətiyyən yox!

İkinci Arzu. Bəs özünə rəva bilmədiyini başqasına niyə bilirsən?

B.Vahabzadənin şeirlərində olduğu kimi, dram əsərlərində də insanın daxili aləmi, insan psixologiyasının mürəkkəbliyi şairin qüdrətli dili ilə qələmə alınır. Onun poeziyası dramaturji əsərləri ilə sıx bağlıdır. Bu cəhətdən onun dram əsərlərində poeziya nümunələrini görmək olur. Cəlal Məmmədov yazır: "Dramaturq çox ciddi əxlaq məsələlərinə toxunur və bunları fəlsəfi mövqedən, bütün ziddiyyətləri və qanunauyğunluqları ilə işıqlandırır. ...pyesin ən səciyyəvi cəhətlərindən biri budur ki, onun epizodlarında və dialoqlarında Bəxtiyar Vahabzadənin şairlik və dramaturqluq istedadı ahəngdar şəkildə birləşir, bir-birini çox gözəl şəkildə tamamlayır. Personajlar öz hiss və həyəcanlarından, arzu və ümidlərindən danışırlar. Bir də görürsən ki, dramatik dialoq "hiss olunmadan" şeirə çevrildi – qəlbi musiqi kimi oxşayan mənalı şeirə.

Mən özüm özümə "unut" dedikcə,
Özümü unudub tapıram səni"[5].

Dramda verilən şeir parçaları pyesin daha canlı, emosional çıxmasına səbəb olmuşdur.

Rəşad. İçimdə dəhşətli döyüş gedir.
Tək özüm bilirəm nə çəkirəm mən
Sinəm ən dəhşətli döyüş meydanı.
Yoxdur bir eşidən, yoxdur bir görən,
Bu döyüş səsini, bu axan qanı.
Neçə "mən" yaşayır tək bircə "məndə",
Öldürən də mənəm, axı ölən də.
Su da özümdədir, od da özümdə,
Dost da özümdədir, yad da özümdə.
Rəhm də məndədir, zülm də məndə,
Həyat da məndədir, ölüm də məndə.

"Kimdir haqlı" dramı vicdanın səsi ilə, qələbəsi ilə belə başa çatır.

İkinci səs. Gah batan ay olur, gah doğan günəş,
Haldan-hala düşür, de, nədən insan?
Gah enir, gah qalxır, gah da büdrəyir,
Beşikdən məzara yol gedən insan.
Təməli vicdandır hər ülviyyətin,
Ürəyi eşitmək çətindir, çətin,
Yüksəlir, böyüyür, öz ürəyinin
İkinci səsini eşidən insan!...

Monoloq nitqin elə formasıdır ki, onu bədii əsərdə ifadə olunan fikir və hadisə ilə əlaqəli öyrənmək, dərk etmək mümkün olur, hadisələr cərəyanından kənarda monoloqu dərk etmək tam mümkün deyil. Daxili monoloq fərdin özü ilə birtərəfli nitq əlaqəsinin mürəkkəb formasıdır. Daxili monoloq vasitəsilə fərd adətən öz şəxsi fikirlərinin son nəticələrini qeyd edir, buna görə onlar üçün müəyyən məzmunlu tamlıq və fasiləsizlik xarakterikdir ki, mövzunun vahidliyi ilə təmin olunur. Daxili monoloq habelə sakitləşdirmək, ürək-dirək vermək, fərdin öz davranışına qiymət vermək vasitəsidir. O, habelə digər insanlarla münasibətləri formalaşdırmağa, onun söz və hərəkətləri üzərində düşünməyə vadar edir. Daxili monoloqun informasiya strukturunun əsasına görə, daha doğrusu, qəhrəmanın fikri fəaliyyətinin istiqamətinə görə retrospektiv daxili monoloq (xatirələr axını, tərcümeyi-halın verilməsi, qəhrəmanın sosial psixoloji vəziyyəti) və aktual daxili monoloq (qəhrəmanın daxili reaksiyasının verilmə üsulları, onun davranışına qüvvə verən hərəkətlər, onun mətnaltı hərəkətləri, qarşılıqlı əlaqəsi və s.) aiddir.

Aktual daxili monoloqun ən son halını təfəkkür axınını hesab etmək olar ki, təfəkkür axını – bu, həm də hissi obrazların axınıdır, qəhrəmanın gerçəkliyi fikrən qəbul etməsidir. Təfəkkür axını bağlılığı olmaması ilə fərqlənir. Daxili monoloq isə daha çox məntiqidir, hər hansı məqsədə yönəlir, qəhrəmanın fikirlərinin, hərəkət və hisslərinin dinamikasını göstərir. Daxili monoloq həm də bədii mətnin o hissələrindən kiçik olur ki, qəhrəmanın təfəkkür axını göstərilir. Monoloq hiss-həyəcan ifadə edən intonasiya ilə, hətta bəzən həyəcan mənalı sual intonasiyası ilə də deyilə bilər. Monoloqdakı nida və həyəcan bildirən sual intonasiyası nəqli intonasiya ilə əvəz olunarsa, monoloq yox, müəllifin nitqi olar... Daxili nitq bir tərəfdən monoloqun fabul-problematik və fabul-yekun növlərini xarakterizə edir, bu da danışana sinxron səhnə situasiyasına qiymət verməyə imkan verir ki, digərlərinin bilməsini o istəmir. Digər tərəfdən daxili nitq monoloqun fabul-problematik növünü xarakterizə edir ki, burada danışan heç bir kommunikanta müraciət etmir, səhnədə tam tək qalır ki, bu da klassik tip monoloq üçün xarakterikdir.İki tip daxili monoloq ayrılır: birbaşa, birinci şəxsin perspektivi ilə və vasitəli – üçüncü şəxsin perspektivi ilə [6].

Vasitəli daxili monoloqda əsasən müəllif xətti, onun əsası – müəllif nitqi, qəhrəmanın təfəkkür prizmasından keçən nitq səslənir. Birbaşa daxili monoloqda praktik cəhətdən müəllif nitqi olmur. Onun üçün danışıq dili söz və konstruksiyaları xarakterikdir: sadə ixtisarlar, fonetik kompressiyalar, emosional rəngli leksika, qısa cümlələr, sual və nəqli cümlələrin çoxluğu, təkrarlar, bitməmiş alogik frazalar.

"Monoloq formasında yazılmış Azərbaycan poemaları" adlı məqaləsində Rafiq Yusifoğlu yazır ki, monoloq ayrı-ayrı əsərlərin komponenti olub, qəhrəmanın mənəvi aləmini öz nitqi, çıxışı ilə açmağa xidmət edən bədii vasitələrdəndir. Dünya ədəbiyyatında Hamletin, Azərbaycan ədəbiyyatında isə Kefli İsgəndərin monoloqu məşhurdur. Azərbaycan poemalarında da yeri gəldikcə qəhrəmanların xarakterini açmaq üçün monoloqlardan bir bədii vasitə kimi istifadə olunmuşdur [7, s.247-249].

B.Vahabzadənin poemalarından biri olan "Atılmışlar" poemasında sevgilisi tərəfindən aldadılan, tərk edilən, rayondan şəhərə oxumağa gələn bir qızın öz uşağını atması, onun daxili ürək çırpıntıları, vicdan hissi, peşmançılığı daxili nitqlə, monoloqla göstərilir.

"Analıq, balalıq bumudur məgər?
Çəkdim qayğısını bircə həftə mən.
Yolumun üstündə bala bir çəpər,
O tərəfdə arzum, bu tərəfdə mən.

Şəhərə gəlmişəm uzaq rayondan,
Burda dərs oxuyum, sənət öyrənim..”

Səs elementinin müxtəlif çalarları B.Vahabzadənin yaradıcılığında güclü şəkildə özünü büruzə verir. B.Vahabzadənin yaradıcılığında vicdanın səsi həmişə parlaq şəkildə özünü göstərir. “Atılmışlar” poemasında da bu səsin harayı, fəryadı insanı daxilən titrədir, poemanı göz yaşı tökmədən oxumaq olmur.

O qəsdən qəşş edib gülürdü bir an,
Qəlbində mələyib onu sarsıdan
Körpənin səsini batırmaq üçün,
Ancaq güclənirdi o səs günbəgün:
Dəniz nəriltisi, su şırıltısı,
Yarpaq pıçıltısı, yel vıyıltısı
Onun qulağında ana axtaran
Körpə balasının hıçqırığıydı...

Körpəsini atmağa məcbur olan ananın hiss və həyəcanları müəllif nitqi ilə belə göstərilir:

Dondu dodağında bir “can” kəlməsi.
Qaldı qulağında körpənin səsi.
O qaçır analıq məhəbbətindən,
O qaçır özünə öz töhmətindən...
Özgələr gözündə günahsızlaşıb
Təmiz görünməkçün ləkədən qaçır.

Poemanın başqa bir yerində vicdanın səsi özünü fəryadla, qışqırıqla göstərir :

Açdı gözlərini...Pəncərələrdən
Doldu otağına körpənin səsi,
Gördü ki, otaqda hər şey qışqırır,
Açdı pəncərəni, yer-göy qışqırır,
Qışqırır masanın üstdə kitablar,
Qışqırır qapı da, pəncərələr də.

Bu misraları oxuyanda B.Vahabzadənin insanların daxili aləminə necə dərindən bələd olması, insan mənəviyyatında baş verən təbəddülatları, psixoloji fikirləri açıq şəkildə görməsi, ustalıqla, şair qələmi ilə üzə çıxarması heyrət doğurur.

Nəticə: B.Vahabzadənin yaradıcılığında daxili səsin, daxili monoloqun, vicdanın müxtəlif üslubi vasitələrlə, çalarlarla ifadəsi özünü göstərir ki, bunlar ayrı tədqiqatın mövzusudur və araşdırılmasına ehtiyac var.

Ədəbiyyat siyahısı

1. Məmmədov A. “Vicdanın səsi”. “Kommunist”, 1982, 27 yanvar.
2. Qarayev Y. “İkinci səs”lə söhbət”. “Bakı”, 1969, 15 may.
3.Синельникова Л.Н. Жизнь текста, или текст жизни. /Луганск: Знание, 2005, 455 с.
4. Ələkbərli Ə. Dramaturgiyada sənətkarlıq axtarışları. (1960-1980-cı illər). Bakı, “Ağrıdağ”. 1997.
5. Məmmədov C. “İkinci səs”. “Bakı”, 15 may, 2009.
6. Депутатова Н.А. Внутренная речь и ее изображение в художественной литературе на примере романа У.С. Моема «Театр». Казанский (Привольжский) федеральный университет. https://kpfu.ru> staff_files>M.PDF
7. Yusifoğlu R. Monoloq formasında yazılmış Azərbaycan poemaları – “Mədəniyyət dünyası”, VIII buraxılış, Əli bəy Hüseynzadə-140, s.247-249.

Наргиз Гаджиева

Внутренний монолог в творчестве Бахтияра Вахабзаде

Резюме

Творчество Бахтияра Вахабзаде, одного из выдающихся народных писателей Азербайджана, отличается богатством языка и стиля. Его произведения многократно изучались различными исследователями, о его драмах и поэмах написано множество статей и монографий. В произведениях Б. Вахабзаде, в отличие от других писателей, на первый план всегда выходит вопрос профессии, веры, совести, более ярко раскрывается внутренний мир писателя, его духовный мир отражается во многих стихах. Внутренний монолог, описываемый в драматических произведениях, представляет собой сложную форму одностороннего речевого общения между человеком и самим собой. Через внутренний монолог человек обычно отмечает конечные результаты своих личных мыслей, поэтому для них характерны определенная содержательная полнота и непрерывность, обеспечиваемые единством темы. Внутренний монолог также является средством успокоения, поощрения и оценки собственного поведения. Это также заставляет человека выстраивать отношения с другими людьми, размышлять над своими словами и поступками. Наряду с внутренним монологом существует и другая форма внутренней речи — внутренний диалог индивида, представляющий собой последовательность взаимосвязанных диалогических предложений, выраженных героем и воспринимаемых в межличностном общении. В отличие от внутреннего монолога, внутренний диалог является экстравертированным коммуникативным актом, или, скорее, направлен на построение интерсубъективной коммуникации вне речи (он показывает отношения между индивидом и с различными людьми вне его мышления).

***Ключевые слова**: Б.Вахабзаде, поема, внутренняя речь, монолог, внутренний диалог.*

Nargiz Hajiyeva

İnner speech in the work of Bakhtiyar Vahabzade

Abstract

The work of Bakhtiyar Vahabzade, one of the prominent people's writers of Azerbaijan, is very rich in terms of language and style. His works have been studied many times by different researchers, many articles and monographs have been written about his dramas and poems. In B. Vahabzade's works, unlike other writers, the issue of profession, belief, conscience is always brought to the fore, more prominently revealed, the writer's inner world, spiritual world is reflected in many of the verses of his poems. The inner monologue described in dramatic works is a complex form of one-sided speech communication between the individual and himself. Through the inner monologue, the individual usually notes the final results of his personal thoughts, therefore, a certain content completeness and continuity are characteristic of them, which is provided by the unity of the topic. The inner monologue is also a means of calming, encouraging, and evaluating the individual's own behavior. It also makes one form relationships with other people, reflect on his words and actions. Along with the internal monologue, there is another form of internal speech - the internal dialogue of the individual, which is a sequence of interconnected dialogic sentences expressed by the hero and perceived in interpersonal communication. Unlike the internal monologue, the internal dialogue is an extraverted communicative act, or rather, it is directed towards the construction of intersubjective communication outside the speech (it shows the relationship between individuals and with various people outside his thinking).

***Key words**: B.Vahabzadeh, poem, inner speech, monologue, inner dialogue.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***
Rəyçilər: ***professor S.Mehdiyeva***
dosent T.İsmayılova